1_Layout 1 28.09.2023 16:46 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 19 (658)

30 sentyabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PREZİDENT HƏR ŞEYİ VAXTINDA VƏ MƏHARƏTLƏ EDİR

**“Azərbaycan” qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu “Prezident hər şeyi vaxtında və məharətlə edir” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



### İlham Əliyev 200 illik erməni avantürasını məhv etdi

İkiəsrlik erməni avantürası cəmi üç ilə diz çökdürüldü!

Azərbaycan işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrildi...

Onilliklərin ardından Qarabağ və Şərqi Zəngəzura yeni həyat qayıtdı, viran qoyulmuş yurdlarımız cənnətə çevrilməyə başlandı, didərgin sakinlərimiz qayıdış köçləri ilə dədə-baba torpaqlarına üz tutdular.

Təcavüzkar Ermənistan “Qarabağ Azərbaycandır!” həqiqətini etiraf etməyə, ölkəmizin suveren ərazilərinin dəqiq ölçülərini dilə gətirməyə məcbur edildi.

Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimiz boyu üçrəngli bayrağımız dalğalandırıldı.

Beynəlxalq Ədalət Məhkəməsinin Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı Ermənistanın tələbini yekdilliklə rədd etməsi ölkəmizin hüquq platformasında da təcavüzkar üzərində qələbə qazanması deməkdir.

Qarabağda aparılan antiterror tədbirləri nəticəsində isə Azərbaycan bütün ərazilərində suverenliyini tam bərpa etdi.

Hər biri barədə cild-cild kitablar yazılacaq və xalqımızın milli maraqlarının təmini istiqamətində ardıcıllıqla qazanılan bu misilsiz zəfərlər, qalibiyyətlər, uğurlar cəmi üç il ərzində əldə olundu.

Nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə, müdrikliklə, məharətlə və təmkinlə apardığı siyasətin nəticəsində Azərbaycan xalqı 2020-ci il sentyabrın 27-də çıxdığı haqq yürüşünü 2023-cü il sentyabrın 20-də tarixin, hüququn, ədalətin təmin olunduğu zirvəyə çatdırdı.

### Əski parçanızı da götürüb haradan gəlmisinizsə, oraya qayıdın

“İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi”.

Bəli, 2023-cü il sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyevin bəyan etdiyi kimi, illərdir sürdürülən sərsəm “Böyük Ermənistan” planları “dəmir yumruğ”un qətiyyətli zərbələri ilə alt-üst edildi.

Cari il sentyabrın 19-20-də Qarabağda uğurla həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi.

Qanunsuz xunta rejiminin “bayraq” adlandırdığı əski parçası isə xuntaçıların qoltuğuna verildi ki, haradan gəliblərsə, götürüb oraya getsinlər. Çünki Qarabağ Azərbaycan ərazisidir və burada kriminal rejim at oynada bilməz.

10 noyabr üçtərəfli Bəyanatında Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarması ilə bağlıdır. Lakin 44 günlük Vətən müharibəsindən ötən müddət ərzində Bakının da dəfələrlə bu məsələ ilə bağlı narazılığını dilə gətirməsinə baxmayaraq, Ermənistan bəzi xarici havadarlarının dəstəyi ilə bu öhdəliyini yerinə yetirməkdən yayınırdı.

Ermənistan “dəmir yumruğ”un zərbəsini “unutduqca”, Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını da “yadından çıxarır”, ölkəmizə qarşı siyasi, hərbi və digər təxribatlarını intensivləşdirirdi.

Hətta sarsaq ideologiyalı erməni lobbisinə, bəzi riyakar xarici ölkə və təşkilatlara güvənən İrəvan İkinci Qarabağ müharibəsi başa çatandan sonra, cari il sentyabrın 9-da Qarabağda qondarma “prezident seçkiləri”nə dəstək göstərmək kimi axmaq cürət nümayiş etdirmişdi.

Sentyabrın 19-da səhər saatlarında erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində mülki vətəndaşlarımızın və hərbçilərimizin mina terrorunun qurbanına çevrilməsi isə səbrimizi daşıran son damla oldu.

### Cəmi 23 saat ərzində Ermənistana başa salındı ki...

Dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandıran Azərbaycan lokal xarakterli antiterror tədbirləri zamanı cəmi bir gün ərzində terrorçuları cəzalandırdı, xuntaçılara “ağ bayraq” qaldırtdırdı.

23 saat ərzində Ermənistana başa salındı ki, istənilən təxribatlarının Azərbaycan tərəfindən layiqli cavabı veriləcək və yerlərinə otuzdurulacaqlar.

Antiterror tədbirləri nəticəsində igid döyüşçülərimiz böyük qəhrəmanlıq və peşəkarlıq göstərərək Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş Ermənistanın ordu bölmələrinin böyük hissəsini tamamilə məhv etdilər. Eyni zamanda hərbi texnika məhv edildi və sıradan çıxarıldı.

Xüsusi vurğulayaq ki, lokal xarakterli antiterror tədbirləri zamanı hərbçilərimiz tərəfindən mülki əhali və infrastruktur obyektləri hədəfə alınmadı, yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı.

Qarabağda aparılan antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa edildi, Azərbaycan qarşıya qoyulan hədəflərə nail oldu, bütün kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü. Bundan sonra bütün Qarabağ ərazisində Azərbaycan qanunları və siyasi hakimiyyəti təmin olunacaq.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə görüş keçirildi.

Artıq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ehtiyaclarının təmin olunması üçün humanitar məqsədlə ərzaq yükü göndərilib.

### Heç kim bizimlə ultimatum dilində danışa bilməz!

Prezident İlham Əliyevin böyük əzm və səylə milli maraqlarımızın təmini istiqamətində apardığı qətiyyətli siyasət xalqımıza ardıcıl qələbələr qazandırdı.

Qalib lider iki əsrdir ki, ermənilərin və havadarlarının arxasınca düşdükləri sərsəm “Böyük Ermənistan” planını, 200 illik erməni avantürasını darmadağın etdi.

Zəfər sərkərdəsi tarixi ərazilərimizə göz dikərək iki əsrdir xalqımızın qanına susayan faşizm xislətli erməni millətçilərinə və onların havadarlarına başa saldı ki, Azərbaycan heç zaman suveren ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Necə ki, bunu sentyabrın 20-də xalqa müraciətində Müzəffər Ali Baş Komandan İlham Əliyev qətiyyətlə bəyan etdi: “Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, “dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN RƏHBƏRLİYİ ZƏFƏR PARKINI ZİYARƏT EDİB







**Sentyabrın 27-də Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin əməkdaşları Bakıda inşası davam etdirilən Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə daşının önünə gül dəstələri qoyublar.**

**DİN-in Mətbuat xidməti**

2 - 2_Layout 1 28.09.2023 16:31 Page 1



# VƏTƏN VƏ VƏTƏNDAŞ UĞRUNDA

## Qəhrəmanlıqları ilə əbədi ömür qazananları heç vaxt unutmayacağıq



Seymur Mahmudov



Ələsgər Əsgərov



Asim Camalzadə



Rasim Məmmədov



Xəzər Zamanov



Ramil Şirinov



Seyfi Abdullayev

Sentyabrın 19-da qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənddə yerləşdirilən minanın partladılması ilə törədilən terror aktı nəticəsində və yol qəzasında həlak olan polis əməkdaşları ilə vida mərasimləri keçirilib.

Mərasimlərdə dövlət və hökumət nümayəndələri, Daxili İşlər Nazirliyinin əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İllər sonra ərazi bütövlüyümüzə yenidən təhlükə yaradan düşmən təxribatlarının qarşısının alınmasında da səngərsiz qəhrəmanlarımız tarixi uğurlara imza atdılar, içdikləri anda sədaqətlərini, Vətənə, xalqa sevgilərini bir daha sübut etdilər. İnanırıq ki, tariximizə adları qızıl hərflərlə yazılan qəhrəmanlarımız heç vaxt unudulmayacaq, yaxın gələcəkdə düşməndən azad edilmiş doğma yurd yerlərimizdə onların adları əbədiləşdiriləcəkdir.

Rəhmətlə anır, ehtiramla yad edirik.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ 27 SENTYABR - ANIM GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİB





Sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Daxili İşlər Nazirliyi tərəfindən Anım Gününün üçüncü ildönümünə həsr olunmuş mərasim keçirilib. Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində, habelə 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ ərazisində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səylərini əsirgəmirlər.

Tədbirin davamında çıxış edənlər istər Birinci Qarabağ döyüşlərində, istərsə də 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının ön cəbhənin müxtəlif istiqamətlərində işğalçı düşmənə qarşı mətinliklə döyüşdüklərini bildiriblər.

Çıxışçılar bu gün işğaldan azad olunan ərazilərdə Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla qeyd ediblər.

Tədbirin sonunda Samir Qulamovun qəhrəmanlıq salnaməmizi özündə əks etdirən “Bir nəfəs qədər” pyesi əsasında hazırlanan eyniadlı tamaşası nümayiş etdirilib.

**DİN-in Mətbuat xidməti**





# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ KURSANTLARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB



2023-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunan kursantların sentyabrın 14-də təntənəli andiçmə mərasimi keçirilib.

Tədbir Ali Hərbi Məktəbin Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlayıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Ali Hərbi Məktəbə yeni qəbul olunmuş kursantlar hərbi and içərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqları, dövlətimizin mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqları, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəkləri barədə söz veriblər.

İlk olaraq çıxış edən məktəb rəisi polkovnik Elçin Məmmədov kursantların hərbi anda sadiq qalacaqlarına, hərb işini vicdanla öyrənəcəklərinə, hərbi ənənələri şərəflə davam və inkişaf etdirəcəklərinə, üzərilərinə düşən şərəfli və məsul vəzifələri layiqincə yerinə yetirəcəklərinə, zabit adına hər zaman layiq olmağa çalışacaqlarına və onlara göstərilən etimadı hər zaman doğruldacaqlarına inamını ifadə edib.

Andiçmə mərasimində iştirak edən Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun andiçmə münasibətilə təbrik və tövsiyələrini çatdırıb. Təbrikdə qeyd olunub ki, Daxili Qoşunların bütün şəxsi heyəti kimi, bu gün sıralarımıza daxil olan kursantlar da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirəcək, Daxili Qoşunların sıralarının möhkəmlənməsi üçün səy göstərəcək, dövlət və dövlətçiliyimizin daha da gücləndirilməsi naminə öz fədakar xidmətlərini əsirgəməyəcəklər.

Əlavə olaraq, general-mayor İ.Muradov çıxışında bütün kursantların bu müqəddəs və şərəfli yolda daim inamla irəliləyərək, Vətənin müsəlləh əsgəri kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmr və göstərişləri layiqincə yerinə yetirəcəklərinə, göstərilən etimadı hər zaman doğrultmaq üçün əllərindən gələni əsirgəməyəcəklərinə inamını ifadə edib.







Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

3 - 2_Layout 1 28.09.2023 16:34 Page 1



# XALQIMIZA ZƏFƏR BƏXŞ EDƏN OĞULLAR ƏBƏDİYAŞARDIR


polkovnik-leytenant Rəşad Hüseynov


gizir Vaqif Rəcəbov


gizir Elvin Əhmədov


baş çavuş Ramin Hüseynov


çavuş Zahir Əliyev


kiçik çavuş Süleyman Mehdiyev


əsgər Fərid Nəbiyev


əsgər Rəşad Vəlizadə


əsgər Azər Məmmədov


əsgər Samir Sadıqov


əsgər Camal Səmədov


əsgər Sahil Babayev

2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonuna daxil olan, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi zonada Silahlı Qüvvələrimizin həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri Ermənistanın işğalçı ordusunun qalıqlarının hərbi qulluqçularımıza, polis əməkdaşlarımıza və dinc sakinlərimizə qarşı növbəti təxribatlarına qətiyyətli cavab idi. Antiterror tədbirləri nəticəsində Qarabağda Azərbaycanın suverenliyi tam bərpa olunub, erməni silahlı birləşmələri zərərsizləşdirilib və tərk-silah edilib, onlara məxsus hərbi obyektlər, artilleriya vasitələri, müxtəlif növ döyüş texnikaları sıradan çıxarılıb. Bununla yanaşı, xeyli sayda silah-sursat qənimət götürülüb.

Açıqlanan rəsmi məlumata görə, antiterror tədbirləri zamanı Müdafiə Nazirliyinin 180 nəfər (mülki şəxs 1 nəfər), Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12 nəfər hərbi qulluqçusu şəhid olub. Hərbi qurumlar üzrə yaralanan 511 nəfər şəxsi heyətin 24 nəfəri Daxili Qoşunların hərbi qulluqçusudur. Bundan əlavə, 1 nəfər mülki şəxs də yaralanıb.

Döyüş tapşırığını yerinə yetirərkən şəhadətə ucalan 12 nəfər hərbi qulluqçumuz 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xidmət ediblər.

Şəhidlərimizin əziz xatirəsi heç vaxt unudulmayacaq və adları ürəklərdə əbədi yaşayacaqdır.

**Mətbuat xidməti**

*Şəhidlərimiz*

# VƏTƏN TORPAĞINI YAĞI TAPDAĞINDAN QURTARMAQ ÜÇÜN LƏYAQƏTLƏ VURUŞDU...

44 günlük Vətən müharibəsi xüsusi təyinatlılarımız üçün ən çətin və şərəfli həyat imtahanı olub. Onlar Müzəffər Ali Baş Komandanımızın etimadını və xalqımızın inamını doğruldaraq döyüş meydanında şanlı tarix yazıblar. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da qələbəmizə layiqli töhfə veriblər. Müharibədə şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızın əksəriyyəti xüsusi təyinatlı dəstələrin yetirmələridir.

17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçusu olmuş əsgər Bağırov Elnur Zeynal oğlu Vətən müharibəsində şəhadətə yüksəlib. Şəhidin ailəsi və silahdaşları ilə əlaqə saxlayaraq onun haqqında məlumatları topladım, həmçinin bəzi sənədlərdə əksini tapan faktları qeydə aldım.

Elnur 1996-cı il martın 6-da Cəlilabad rayonunun Privolnoye kəndində doğulub. Zeynal Bağırov və Almaz Bağırova onun valideynləridir. Ailənin üç övladından biri, habelə ortancılı olan Elnurun bir bacısı (Şəbnəm Bağışova) və bir qardaşı (Natiq Bağırov) var. Onlar Privolnoye kəndində yaşayırlar. O, ata-anasının halal zəhməti ilə böyüyərək boya-başa çatıb, mənəvi dəyərlərimizə bağlılıq, el-obaya ehtiram ruhunda tərbiyə olunub. Yaşıdları arasında ədəb-ərkanı ilə seçilib. Doğmalarının, dostlarının, həmkəndlilərinin yaddaşında öz qayğıkeşliyi və xeyirxahlığı ilə silinməz iz qoyub.

Privolnoyedəki 2 saylı tam orta məktəbdə təhsil alıb. Müəllimləri Elnuru vətənpərvər gənc olaraq yetişdiriblər. Həmişə onlara hörmətlə yanaşıb. Orta məktəbi bitirdikdən sonra Mirəjdər Mürsəlov adına Cəlilabad Peşə Liseyində (hazırda Cəlilabad Dövlət Peşə Təhsili Mərkəzi) təhsilini davam etdirib. Peşə Liseyində avtomobillərin təmiri üzrə çilingər ixtisasına yiyələnib. Ailəsinin verdiyi məlumata görə, Elnurun sürücülüyə marağı olub, müxtəlif markalı avtomobillərin texniki parametrlərinə aid bilgiləri öyrənib. Bununla yanaşı, fiziki hazırlığına daim diqqət yetirib, idmanın qaçış növünə üstünlük verib, ayrı-ayrı tərminlər üzrə də məharətini göstərib.

2014-2015-ci illərdə Elnur Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib, komandirləri tərəfindən müsbət xarakterizə olunub, yiyələndiyi hərbi biliklər, hərbçi həyatı barədə formalaşan təsəvvürləri onun gələcək peşə seçimində vacib rol oynayıb.

Müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan bir neçə ay sonra həyatını hərbçi peşəsinə bağlamağı qəti qərarlaşdırıb. O, hərbi xidmətə qayıdaraq xüsusi təyinatlı bölmədə xidmət etməyi qarşısına məqsəd qoyub. Elnurun bu qərarına valideynləri də xeyir-dua veriblər.



2016-cı il mayın 7-dən etibarən Elnur Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Həmin tarixdən Vətən müharibəsinədək 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət edib. Dəstənin atəş təminatı qrupunun 60 mm minaatan yarımqrupunun və xüsusi həmlə qrupunun yarımqrupunun heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğrultmağı bacarıb. Hərbi xidməti dövründə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Müsbət şəxsi keyfiyyətlərinə görə silahdaşlarının hörmətini qazanıb. Hərbi qulluqçu şərəfini daim uca tutub, xüsusi təyinatlı olması ilə qürur duyub. Döyüş təlimində fəal olub, peşə hazırlığını artırmağa çalışıb. Mənəvi-psixoloji hazırlığı baxımından da fərqlənərək, məsləyinə sadiq hərbi qulluqçu kimi tanınıb. Xüsusi təyinatlı olaraq qarşısına qoyulan tapşırıqların icrasında məsuliyyət və əzmkarlıq nümayiş etdirib.

Vətən müharibəsi iştirakçısı, 17072, 16073 saylı hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin komandiri olmuş, hazırda isə DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan xüsusi təyinatlı təlim mərkəzinin döyüş təlimi şöbəsinin rəisi polis polkovnik-leytenantı Zaur Rəhimov tabeliyində xidmət etmiş əsgər E.Bağırovu peşəkar, cəsarətli, qorxmaz, hərbi anda sadiq hərbi qulluqçu kimi xatırladığını söylədi. Bildirdi ki, o, hərbi xidmətdə öz vəzifələrinin öhdəsindən layiqincə gəlib, kollektivdə təmkinli, ciddi davranışı ilə yoldaşlarına örnək olub, təlimlərdə biliklərini genişləndirməyə, bacarıqlarını təkmilləşdirməyə çalışıb.

Polis polkovnik-leytenantı Z.Rəhimovun sözlərinə görə, Elnur Vətən müharibəsi başladıqda döyüş əməliyyatlarına ilk qatılan hərbi qulluqçuların sıralarında idi. Mürəkkəb relyefə və çətin iqlim şəraitinə malik Kəlbəcər rayonunun ərazisində, Murovdağ istiqamətində son nəfəsinədək mərdliklə vuruşub.

17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Yasin Qasımov da Vətən müharibəsi iştirakçısıdır. Məlumat verdi ki, Elnuru dəstədə xidmət etdiyi vaxtdan tanıyıb: "Xüsusi təyinatlı dəstəyə təyin olunan hərbi qulluqçu kurs keçməli idi. 17074 saylı hərbi hissədə keçirilən kursa qatıldı. Kurs müddətində qrup komandiri olmuşam. Fəaliyyətində yaxşı nəticələr əldə etməsi diqqətimdən yayınmadı. Kursu bitirdikdən sonra dəstə komandirindən Elnurun komandiri olduğum yarımqrupa keçirilməsini xahiş etdim. Komandanlığa məruzə olundu. Bir müddət sonra bununla bağlı əmr verildi. O vaxtdan birgə xidmət etməyə başladıq. Elnur Vətənini, dövlətini sevən, hərtərəfli hazırlığa malik, çevik, səliqəli, icraçılığında dəqiq, kollektivdə öz yerini bilən, komandirlərinə hörmətlə yanaşan, yoldaşlarından köməyini əsirgəməyən hərbi qulluqçu idi.

2020-ci ildə koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üçün Göygöl rayonunda polis əməkdaşları ilə birgə postlarda xidmətə cəlb edildik. Xidmət zamanı Elnur verilən tapşırıqları düzgün icra etdi və ayıq-sayıqlıq göstərdi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladı. Ordumuz ön cəbhənin müxtəlif istiqamətlərində erməni işğalçılarına qarşı əks-hücuma keçdi. Xidmət etdiyimiz dəstənin şəxsi heyəti də döyüşlərə qatıldı. Biz Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları ilə birlikdə Murovdağ silsiləsinin bir neçə yüksəkliyi istiqamətində vuruşurduq. Ömər aşırımında düşmənin bəzi postlarını ələ keçirdik. Kəlbəcər rayonunun Susuzluq kəndinə doğru hərəkət edərkən Elnurun qarşısına erməni artilleriyasından atılmış mərmi düşərək partladı. Partlayış dalğası onu bir qədər kənara atdı, yanına qaçarkən heç nə olmamış kimi ayağa durdu, bizə tərəf gəldi, üzündə və digər nahiyələrində daş qırıqları yaralar açmışdı. İlk tibbi yardım göstərildi. Nə qədər desək də Elnur geriyə qayıtmadı. Dedi ki, şəhid olanadək vuruşacaq. Kəlbəcər rayonunun dərinliklərinə doğru bizimlə irəliləməkdə davam etdi. Sentyabrın 29-da



növbəti döyüş tapşırığından qayıdarkən Ömər aşırımı yaxınlığında işğalçıların atdıqları artilleriya mərmisinin partlaması nəticəsində yaranan qəlpə Elnurun üzərindəki qumbaranın tətiklənməsinə səbəb oldu, qumbara partlayarkən o, şəhidlik məqamına ucaldı".

Vətən müharibəsi qazisi, istefada olan çavuş Ümman Baxşalıyev Bərdə rayonunda yaşayır. O da Elnurla birgə xidmət edib və döyüş yolu keçib. Qeyd etdi ki, silahdaşı haqqında xatirələri çoxdur, onun xidmətdə həmişə uğurlarının olduğunu dedi. Göstərici təlimlər, ayrı-ayrı tədbirlərdə iştirak üçün seçilərkən hərbçi bacarığı, fiziki məharəti nəzərə alınıb. Ümman məlumat verdi ki, Elnur zoğalı beret daşımağı arzulayıb, bunun üçün imtahanlara da hazırlaşıb, lakin qismət deyilmiş.

Müsahibim danışdı ki, Elnura etibarlı yoldaş kimi güvənib. Müharibədə ilk gündən cəsurluq, iradə və dözüm göstərdiyinin şahidi olub. Yaralı hərbi qulluqçularımızın təxliyyəsinə kömək etməyə can atıb. Ön cəbhədə Elnura 5,45 mm avtomat silahı və pulemyot köməkçisi olduğu üçün 1000-ə yaxın sursat dəsti təhkim edilib. Düşməni sərrast atəş zərbələri ilə susdurub. Murovdağın zirvələrinə onun kimi cəngavərlərin qanı tökülüb.

Göygöl Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 3 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə əsgər E.Bağırovun sentyabrın 28-də hərbi əməliyyatlar nəticəsində başın açıq yarası səbəbindən şəhid olduğu yazılıb.

2020-ci il oktyabrın 2-də hərbi qulluqçumuz Privolnoye kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər E.Bağırov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Privolnoye kəndindən 8 nəfər Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb. Kənddə şəhidlərin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb və şəkilləri əks olunan plakatlar quraşdırılıb. Oradakı 2 saylı tam orta məktəbdə xüsusi təyinatlının adına sinif var. Bağırovlar ailəsinin yaşadığı evdə şəhidin xatirə guşəsi düzəldilib. Cəlilabad Dövlət Peşə Təhsili Mərkəzində şəhidlərə aid fotostend mövcuddur.

"Memorial. Vətən müharibəsi şəhidləri" I cild və "Şəhidlik zirvəsinə ucalanlar" kitablarında, o cümlədən dövri mətbuatda, sosial şəbəkələrdə Elnurun ömür yolu işıqlandırılıb. Döyüşçüyə şeir və mahnı həsr olunub, haqqında videoçarx hazırlanıb.

Elnur öz nəslinin yeganə şəhididir. Babası Simran Bağırov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı döyüşüb, 1971-ci ildə dünyasını dəyişib.

Şəhidin qardaşı Natiq Bağırov Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşıdır, polis serjantıdır. İctimai təhlükəsizliyin keşiyindədir, fəaliyyətində qardaşının adına layiq olmaq əsas məramıdır.

Subay olmuş Elnurun valideynləri onun toyunu görməyi, xoşbəxtliyinə qovuşmasını arzulayıblar. Övlad itkisi onları dərindən sarsıdıb. Ancaq ürəklərində iftixar hissi var. Çünki taleyinə şəhadət yazılan mərd oğul kimi Elnur xalqının səadəti naminə həyatını qurban verib.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 28.09.2023 16:44 Page 1



# "REQLAMENT VƏ İSTİSMAR QRUPUNDA QABAQCIL İŞ ÜSULLARI HƏYATA KEÇİRİLİR"



17077 saylı hərbi hissənin radioelektron avadanlıqların reqlament və istismar qrupunun şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqların icrasına məsuliyyətlə yanaşır, nümunəvi xidmətilə fərqlənir. Təbii ki, xidmətin düzgün istiqamətdə təşkilində qrupun rəisi baş leytenant Rəhim Xıdırovun zəhməti danılmazdır.

Zabit aviasiya texnikasının döyüş hazırlığına, sazlığına, uçuşlara tam və keyfiyyətlə hazırlanmasına, qrupa təhkim olunmuş alətlərin, avadanlığın və xüsusi avtomobillərin texniki vəziyyətinə və təyinatı üzrə istifadəsinə cavabdehlik daşıyır. Aviasiya texnikasında işlərin vaxtında, keyfiyyətlə yerinə yetirilməsi, təhlükəsizlik qaydalarına riayət edilməsi, tabeliyində olan hərbi qulluqçuların hazırlığına nəzarət etmək onun funksional vəzifələridir.

Baş leytenant R.Xıdırov söylədi ki, reqlament və istismar qrupunda döyüş hazırlığının artırılmasına yönəldilmiş qabaqcıl iş üsulları həyata keçirilir. Helikopterlərin uçuşa hazırlığı üçün bütün işləri şəxsən yerinə yetirir və nasazlıqlar olarsa, onların dərhal aradan qaldırılması üçün əlindən gələni əsirgəmir: "Uçuşdan öncə hər bir helikopterə baxış keçirilir, uçuşa hazırlıq vəziyyəti yoxlanılır. Bu zaman aviasiya texnikasının yerüstü xidmət, rabitə və idarəetmə vasitələrinə nəzarət olunur, yanacağın, yağın, xüsusi maye və qazların keyfiyyəti yoxlanılır, hər şey qaydasında olarsa, uçuşa icazə verilir. Təhlükəsizlik qaydalarına və yanğın əleyhinə tədbirlərin tələblərinə də ciddi şəkildə riayət olunur".

Həmçinin mühəndis aviasiya təlimatına uyğun olaraq, helikopterlərdə həftədə bir dəfə uçuşlara hazırlıq işləri, iki həftədən bir isə park günü yerinə yetirilir. Texnoloji kartlara əsasən, 25, 50, 100, 200 saatlıq reqlament işləri görülür.

Baş leytenant R.Xıdırov bu sahənin spesifikliyini nəzərimizə çatdıraraq, ildə iki dəfə yaz-yay mövsümündən payız-qış mövsümünə keçidlə əlaqədar olaraq Daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisinin göstərişinə əsasən, helikopterlərə əsaslı texniki qulluğun göstərildiyini sözlərinə əlavə etdi. Bununla yanaşı, 30 və 60 saat uçuş yerinə yetirilmədikdə, dayanacaqda qaldığı üçün şəxsi heyət tərəfindən texniki qulluq işləri aparılır.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# PEŞƏKAR ZABİT ÖRNƏYİ XİDMƏTDƏ VACİB AMİLDİR



Daxili Qoşunların Ali Hərbi Məktəbinin məzunu baş leytenant Cabbar Haqverdiyev savadlı və vətənpərvər əqidəyə malik hərbi qulluqçularımızdan biridir.

Baş leytenant C.Haqverdiyev 2001-ci ilin dekabr ayının 28-də Gəncə şəhərində doğulub. 2008-2019-cu illərdə İsrafil Məmmədov adına 27 nömrəli məktəb-liseydə orta təhsil alıb. 2019-cu ildə 510 balla Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə daxil olub. Təhsil aldığı müddət ərzində birinciliyini qoruyub saxlayıb, tədris dövrlərində vəzifə borclarının icrasına layiqincə münasibət bəslədiyinə, tədrisdə və hərbi intizamın möhkəmləndirilməsində fərqləndiyinə və nailiyyətlər əldə etdiyinə görə dəfələrlə mükafatlandırılıb. Qarşısına intizamlı, məsuliyyətli və savadlı hərbi qulluqçu kimi yetişmək məqsədini qoyan Cabbar bu istiqamətdə hər zaman öz üzərində çalışıb. Çünki bilirdi ki, savadlı kursant gələcəyin peşəkar zabiti deməkdir. Bunun nəticəsidir ki, 2023-cü ilin iyun ayında o, məktəbi fərqlənmə ilə bitirib, ona "baş leytenant" hərbi rütbəsi verilib və hazırda xidmətini 67987 saylı hərbi hissədə layiqincə davam etdirir.

Hərbi hissənin komendant bölüyünün taqım komandiri vəzifəsində xidmət edən baş leytenant C.Haqverdiyev hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur, komandir kimi ona verilən tapşırıqları keyfiyyətlə yerinə yetirir.

Baş leytenant C.Haqverdiyevə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR



Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

16075 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti mayoru Zaur Məsimov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti mayoru Z.Məsimov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları – aptek rəisi-feldşer gizir İsaq Əmənov və sanitar-təlimatçı, dezinfektor baş çavuş Şəhla Əhmədova qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Hərbi hissənin tibb məntəqəsinin imkanları daxilində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının genişləndirilmiş tibbi müayinəsi tam şəkildə təmin olunub.

Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq səhər və axşam saatlarında termometriya aparılır.

Bir sözlə, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Şahin Cəfərzadə**

# İNTİZAMLI VƏ ƏZMKAR ƏSGƏR



16076 saylı hərbi hissənin intizamlı, bacarıqlı əsgəri Vüqar Musayev öz vəzifələrini düzgün və dəqiq yerinə yetirir. O, 2004-cü il mayın 19-da Sabirabad rayonunun Bulduq kəndində anadan olub. 2011-2021-ci illərdə doğma kəndində tam orta məktəbi bitirərək Şamaxı Dövlət Regional Kollecinə daxil olub və qida təhlükəsizliyinin təmin edilməsi ixtisasına yiyələnib. Hələ uşaq yaşlarından idmanın güləş növü ilə məşğul olub. Bir çox mükafatı var.

2022-ci ilin iyul ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin avqust-noyabr aylarında 25032 saylı hərbi hissədə rabitə kursu keçib. Kursu uğurla başa vuran hərbi qulluqçumuz noyabr ayından 16076 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin olunub və bu gün də həmin vəzifədə xidmətini davam etdirməkdədir.

Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən əsgər V.Musayev hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. İstənilən vaxt verilən tapşırıqların icrasında sayıqlıq göstərir, döyüş və mənəvi-psixoloji hazırlığını artırmağa çalışır.

Vətənə olan borcunu sona kimi ləyaqətlə yerinə yetirməyi düşünən əsgərimiz müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət keçmək arzusundadır.

Biz də öz növbəmizdə ona gələcək xidmətində nailiyyətlər arzulayır, uğurlarının davamlı olmasını diləyirik.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# KEYFİYYƏTLİ QİDALANMA DÖYÜŞ HAZIRLIĞINI ŞƏRTLƏNDİRƏN CƏHƏTLƏRDƏNDİR

Yüksək döyüş hazırlığını qoruyub saxlayan 99713 saylı hərbi hissənin komandanlığının xüsusi diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli və kalorili qidalanmasıdır. Hərbi hissə komandanlığının nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti müvafiq tələblərə tam cavab verir. Orada olarkən yeməkxanadakı səliqə-sahman və gigiyenik qaydaların gözlənilməsi diqqətimi cəlb etdi.



Hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Ruslan Qurbanov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir.



O, şəxsi heyətin qidalanmasının Daxili işlər nazirinin müvafiq əmrinin tələbləri əsasında təşkil olunduğunu söylədi. Həftə ərzində hərbi qulluqçulara I xörək yarmalı şorba, lobya şorbası, kələm borşu, düyü şorbası, noxud şorbası, II xörək olaraq isə qarabaşaq, makaron, plov və kartof əzməsi mal əti ilə, bulqur, eləcə də kartof əzməsi mal əti konservası ilə verilir. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi salatlar və meyvə kompotları da qida rasionuna daxildir.

Əsgər yeməkxanasında səliqə-sahman və gigiyenik şəraitin yaradılmasında yeməkxana rəisi baş çavuş Sahib Həsənovun da əməyi danılmazdır. Ərzaq normalarının düzgün bölünməsində, cədvəllərin tərtibatı işində artıq 7 ildir hərbi xidmətdə olan ərzaq xidmətinin kargüzarı çavuş Nəzmiyyə Quliyevanın əməyi xüsusi vurğulayan kapitan R.Qurbanov onun nümunəvi, işinə məsuliyyətlə yanaşan hərbi qulluqçu olduğunu bildirdi.

Zabitin sözlərinə görə, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunların komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu məqsədlə, aidiyyəti kurs keçmiş əsgər aşpazlarla bərabər, işçilərin əməyindən də istifadə olunur. Onlardan Sima Məhərrəmova, Niyar Vəliyeva, Nəcibə Əhmədova və Zülfiyyə Cəfərovanın adlarını çəkən ərzaq xidmətinin rəisi onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını nəzərə çatdırdı.

**kapitan Nigar Ağayeva**

# CAMAŞIRXANA FƏALİYYƏTİNİ UĞURLA TƏŞKİL EDİR

Qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsində, hərbi hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, işçilərin də əməyi böyükdür. Onlar müxtəlif xidmət sahələrində çalışaraq, qarşıya qoyulan tapşırıqlara vicdanla yanaşırlar.





16077 saylı hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Sakit Əhmədov tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşırxana işçiləri Fazilə Əliyeva, Südabə Haqverdiyeva, Etibar Mustafayeva, Nailə Mirzəliyeva artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalırlar. İşçilər üzərlərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirirlər.

Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

**kapitan Xədicə Hacızadə**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000